2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Samir Tağıyevin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci il tarixli 106 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 2 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Samir Tağıyev 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 72 saylı Yardımlı-Masallı seçki dairəsindən Güllütəpə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Mirzəyev Elşad Şəmsəddin oğlu və digərləri tərəfindən 2015-ci il yanvarın 1-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 72 saylı Yardımlı-Masallı seçki dairəsindən Güllütəpə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Mirzəyev Elşad Şəmsəddin oğlu və digərləri Mərkəzi Seçki Komissiyasına müraciət edərək həmin seçki dairəsinin 78 və 79 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularının olması barədə müraciətlərinə dairə seçki komissiyası tərəfindən cavab verilmədiyini bildirmiş, müvafiq tədbir görülməsini xahiş etmişlər.

Araşdırma prosesində müəyyən edilmişdir ki, E.Ş.Mirzəyevin və digərlərinin müraciətləri 72 saylı Yardımlı-Masallı seçki dairəsi dairə seçki komissiyasına daxil olmuş, dairə seçki komissiyası qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada qeyd edilən müraciətləri araşdıraraq müvafiq qərar qəbul etmiş və qərarların surəti poçt vasitəsi ilə şikayətçilərə göndərilmişdir. Ona görə də E.Ş.Mirzəyevin və digərlərinin müraciəti əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 72 saylı Yardımlı-Masallı seçki dairəsindən Güllütəpə bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Mirzəyev Elşad Şəmsəddin oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci tarixli 106 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Samir Tağıyev